Novruz bayramınız mübarək!

www.amu.edu.az

TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-05 (1744) 15 mart 2022-ci il

Avrasiya Universitetlər Birliyindən ATU-ya üzvlük dəvəti

İstanbul Aydın Universitetinin sahibi Mustafa Aydın professor Gəray Gəraybəyli ilə görüşüb

səh. 2

Əməkdaşımızın rəhbərlik etdiyi elmi iş Türkiyədə birinci yerə layiq görülüb

səh. 5

Erkən diaqnostika və müalicə süd vəzi xərçənginə qalib gəlməyə kömək edir

səh. 2

İmmun sisteminə hansı hallarda dərman müdaxiləsi təyin oluna bilər?

səh. 6

"Müəllimin vəzifəsi soruşmaq, incitmək, sıxmaq deyil, öyrətməkdir"

ATU-da tədris prosesinin yeni səviyyəyə qaldırılması Böyük Elmi Şuranın növbəti iclasında diqqət mərkəzində olub

səh. 3

Xanımların günü – ilin hər günü

ATU-nun əməkdaşları və tələbələri 8 Mart bayramı münasibətilə bütün qadınları təbrik edib

səh. 4

Radiologiya - tibbin görən gözü

Professor Məlahət Sultanova: İonlaşma riski baxımından, yalnız uyğun göstərişlər olduqda, radioloji müayinələr tətbiq edilməlidir

səh. 7

Novruz bayramında necə qidalanmalıyıq?

Mədədə ağır yüklənmə baş verməsin deyə, yüksək kalorili qidaları eyni vaxtda qəbul etmək məsləhət görülmür

səh. 5

Avrasiya Universitetlər Birliyindən ATU-ya üzvlük dəvəti

İstanbul Aydın Universitetinin sahibi Mustafa Aydın professor Gəray Gəraybəyli ilə görüşüb

Avrasiya Universitetlər Birliyinin sədri, İstanbul Aydın Universitetinin sahibi Mustafa Aydın Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, professor Gəray Gəraybəylinin qonağı olub.

Görüşdə professor Gəray Gəraybəyli qonağa universitet haqqında geniş məlumat verib, tədris və təlim prosesindəki yeniliklərdən danışıb: "Universitetimizdə 7000 tələbə təhsil alır, bunlardan 2500-ü xaricilərdir ki, onların da əksəriyyəti qardaş Türkiyə vətəndaşlarıdır. Xarici tələbə sayına görə ölkə universitetləri arasında birinci yerdəyik. ATU-da tədris 3 dildə aparılır, son illər proqramlarımıza ciddi dəyişikliklər edirik. Tələbələrin xarici ölkələrdə rahat rotasiyadan keçə bilməsi, həm də ikili diplomların tətbiqi üçün vacib addımlar atılıb, fizioterapist, tibb bacılığı kimi yeni ixtisaslar açılıb. Tələbə və rezidentlərimiz universitetin 4 klinikasında həm təhsil alır, həm də praktiki bacarıqlar əldə edirlər. Ən müasir tibbi avadanlıqla təchiz olunmuş klinikalarımızda pasiyentlərə yüksək keyfiyyətli xidmət göstərilir, peşəkar həkimlərimiz tərəfindən ən mürəkkəb əməliyyatlar uğurla icra olunur. Bu yaxınlarda universitetimizin tədris proqramları 3 kateqoriya üzrə beynəlxalq akkreditasiyadan keçib".

Rektor qeyd edib ki, ATU indiyədək bir çox Türkiyə universitetləri ilə əməkdaşlıq sazişləri imzalayıb. Bu anlaşmalar çərçivəsində ortaq layihələr, qarşılıqlı səfərlər, ikitərəfli onlayn dərslər təşkil olunub.

Professor G.Gəraybəyli 44 günlük Vətən müharibəsi dövründə ATU-nun əməkdaşlıq etdiyi universitetlərdən dəstək bəyanatları aldığını, həmin dövrdə qardaş Türkiyənin bütün imkanları ilə yanımızda olduğunu xatırladaraq, Azərbaycan xalqına verilən bu böyük dəstəyə görə bir daha minnətdarlığını bildirib.

İstanbul Aydın Universitetinin (İAU) sahibi Mustafa Aydın səmimi sözlər üçün təşəkkür edərək, rəhbərlik etdiyi ali məktəb haqqında məlumat verib. Qeyd edib ki, İAU Türkiyənin ən çox tələbəsi olan, həmçinin azərbaycanlı tələbələrin də ən çox müraciət etdiyi vəqf universitetidir. Hazırda 40 min tələbəsi olan bu ali məktəbdə 400-ə yaxın azərbaycanlı təhsil alır.

Mustafa Aydın həm sahibi olduğu universitet, həm də Avrasiya Universitetlər Birliyinin xətti ilə bütün dünyada təhsilin inkişafı, bu sektorda qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər gördüklərini vurğulayıb. Avrasiya Universitetlər Birliyində dünyanın 55-dən çox ölkəsindən 125-dən artıq aktiv universitetin təmsil olunduğunu bildirən M.Aydın, Azərbaycan Tibb Universitetini də bu sırada görməkdən məmnun olacaqlarını qeyd edib.

Sonra tərəflər arasında qarşılıqlı əməkdaşlığın perspektivlərinə dair müzakirə aparılıb. Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova, Avrasiya Universitetlər Birliyinin baş katibi Səbinə Hüseynova, İstanbul Aydın Universitetinin Azərbaycandakı təmsilçisi Fərid Şahbazlı iştirak ediblər.

Günel Aslanova

"İxtisasını tanıt" layihəsinin qalibləri mükafatlandırılıb

İctimai səhiyyə fakültəsi "İxtisasını tanıt" mövzusunda layihə reallaşdırıb. Layihə çərçivəsində iştirakçı tələbələr seçdikləri, təhsil aldıqları ixtisas barədə tanıtım xarakterli məlumat veriblər.

20 tələbənin iştirak etdiyi layihə zamanı ictimai səhiyyə, fizioterapiya və tibbi reabilitasiya ixtisasları üzrə təqdimatlar keçirilib. İki gün ərzində münsiflər heyətinin üzvləri tələbələrin təqdimatlarını dinləyib, öz fikirlərini açıqlayıblar. Qiymətləndirmə mərhələsindən sonra daha çox müsbət rəy qazanan layihələrin müəllifləri mükafatlandırılıb.

Mükafatlandırma mərasimində fakültənin dekanı, professor Anar Ağayev çıxış edərək bu cür layihələrin əhəmiyyətini qeyd edib, tələblər üçün stimul yaratdığını bildirib. A.Ağayev gəncləri aktiv olmağa, belə təşəbbüslərə maraq göstərməyə çağırıb.

Qeyd edək ki, "İxtisasını tanıt" layihəsinn sonunda 3 tələbə qalib elan olunub: II kurs tələbəsi Məltəm Sahratlı (ictimai səhiyyə ixtisası), II kurs tələbəsi Azadə Hüseynova (fizioterapiya və tibbi reabilitasiya) və I kurs tələbəsi Fatimə Şabanova (fizioterapiya və tibbi reabilitasiya). Onlara diplom və təşəkkürnamə təqdim edilib. Digər tələbələr iştirakçı sertifikatları ilə təltif olunublar.

Münsiflər heyətinin tərkibi İctimai səhiyyə fakültəsinin dekanı, professor Anar Ağayev, Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun direktoru Pərvin Əkbərov, ATU-nun tibb təhsili və innovasiya şöbəsinin müdiri Aygün Babayeva, ATU-nun məzunu, AQTİ-nin Milli Referans laboratoriyasının mütəxəssisi Aynur Məmmədli və tibb bacılığı ixtisası üzrə müəllim Mədinə Dəryadan ibarət olub.

"COVİD-19 diaqnostikasına müasir yanaşma və problemlər"

Bu mövzuda konfransın ATU-nun Tədris Terapevtik Klinikasında keçirilməsi təsadüfi deyildi

ATU-nun Tədris Terapevtik Klinikasında "COVİD-19 diaqnostikasına müasir yanaşma və problemlər" mövzusunda konfans keçirilib.

Tədbiri açan klinikanın direktoru, professor Surxay Musayev bu konfansın məhz burada baş tutmasının heç də təsadüfi olmadığını söylədi. Direktor bildirdi ki, koronavirusun ölkəmizdə yayıldığı ilk günlərdən Tədris Terapevtik Klinika da öz fəaliyyətini bu istiqamətə yönəldib və həmin dövrdə böyük işlər görüb.

Daha sonra rəhbəri olduğu terapevtik yönümlü klinikanın yaranma tarixindən söhbət açan S.Musayev, hazırda burada xəstələrin müayinə və müalicəsi üçün hər cür şəraitin olması, təklif edilən xidmət, həmçinin peşəkar tibbi personal barədə məlumat verdi.

Konfransda iştirak edən TƏBİB-in (Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva "Azərbaycanda COVİD-19 laboratoriyalarının vəziyyəti" mövzusunda məruzə etdi. Y.Qarayeva bu xəstəliyin törədicisi, yoluxma yolları, xəstəliyin təsdiqi və diaqnostik metodları haqqında danışaraq, pandemiya ilə mübarizə strategiyası və tətbiqi formalarını diqqətə çatdırdı.

Ölkəmizdə bu istiqamətdə fəaliyyət göstərən laboratoriyaların işinin təşkili haqqında geniş söhbət açan natiq bildirdi ki, COVID-19 virusu yayılmağa başlayandan, onun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsalı laborator testlər, tibbi avadanlıq və ləvazimatlar, qoruyucu vasitələr ölkəmizə gətirilib, respublika ərazisində bu istiqamətdə laboratoriyaların fəaliyyəti təmin edilib, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə modul tipli xəstəxanaların tikildiyini və eləcə də "Yeni klinika"nın müasir tibb müəssisəsi kimi koronavirus xəstələrinin müalicəsi üçün ayrıldığını deyən Y.Qarayevanın sözlərinə görə, koronovirus və onun yayılması nəticəsində yaranmış vəziyyətlə bağlı kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə geniş və əhatəli məlumat və təbliğat işləri aparılıb.

Sonra Tədris Terapevtik Klinikanın mərkəzi laboratoriyasının müdiri dr. İskəndər Karaltı "SARS-COV-2-nin strukturu və Omikron varian tı", həmin laboratoriyanın həkimi Bayram Tağıyev "COVİD-19 xəstəliyinin diaqnostikasında seroloji testlər" və respublikamızın bir sıra tibb müəssisələrindən gəlmiş mütəxəssislər müzakirə olunan məsələ ilə bağlı müxtəlif mövzularda çıxışlar etdilər.

Erkən diaqnostika və müalicə süd vəzi xərçənginə qalib gəlməyə kömək edir

Terapevtik Klinikada "Səsimiz olun" adlı geniş elmi-praktik konfrans keçirilib

Martın 9-da Azərbaycan Tibb Universitetinin təşkilatçılığı ilə ATU-nun Tədris Terapevtik Klinikasında "Səsimiz olun" adlı geniş elmi-praktik konfrans keçirilib. Konfransa rəhbərlik edən ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, professor Məlahət Sultanova tədbirin məqsədi haqqında məlumat verib.

Sonra ATU-nun Elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov toplantı iştirakçılarını universitet rəhbərliyi adından salamlayıb. Prorektor süd vəzi xərçənginin hazırda dünyada ən aktual problemlərdən biri olduğunu qeyd edib və bu tədbirin keçirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini deyib: "Dünyanın bütün ölkələrində süd vəzi xərçəngi bədxassəli şişlər arasında birinci yeri tutur və qadınların bütün onkoloji xəstəliklərinin 26 %-ni təşkil edir. Bu göstəricinin son 10 ildə proqressiv artması müşahidə olunur. Azərbaycanda süd vəzi xərçənginə rastgəlmə tezliyi son 15 ildə yüksəlib və bu hələ son hədd deyil. Son illər ərzində ölkəmizdə qadınların bütün bədxassəli yenitörəmələr ilə xəstələnmə halları arasında birinci yeri tutaraq 32,3% təşkil edir. Süd vəzi xərçənginin diaqnostika və müalicəsində əldə olunan nailiyyətlərə baxmayaraq, bu patologiya ilə ölüm hallarının göstəricisi yüksək olaraq qalır".

Tədris Terapevtik Klinikanın direktoru, professor Surxay Musayev çıxışında bildirib ki, rəhbərlik etdiyi tibb müəssisəsi yarandığı gündən indiyədək müxtəlif tipli böyük konfranslara ev sahibliyi edib. Bu tədbirlərdə ölkəmizin, eləcə də dünya səviyyəli universitetlərin tanınmış tibb mütəxəssisləri, alimləri iştirak ediblər. Bu toplantının da onlardan biri olduğunu vurğulayan direktor, bu cür aktual mövzuda tədbiri təşkil edənlərə təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

Konfransda çıxış edən Tədris Terapevtik Klinikanın Radiologiya şöbəsinin müdiri, mammoloq-radioloq Günel Qəmbərova deyib ki, son illər həyata keçirilən işlərin nəticəsində qadınlar, xüsusilə 35 yaşadək olanlar mütəmadi şəkildə mammoloq konsultasiyasından, ultrasəs müayinədən keçirlər. Bu da həkimlərə xəstəliyə erkən diaqnostika qoymaqda kömək edir: "Dünyada, o cümlədən Azərbaycanda hər 8 qadından birində süd vəzi xərçənginə rast gəlinir. Son dövrlərdə erkən diaqnostikanın aparılmasına nail olmuşuq və demək olar ki, ölkəmizdə süd verən anaların xərçəngə yoluxma riski azdır. Burada maarifləndirmə işləri, televiziya proqramları, sosial media böyük rol oynayır".

Süd vəzi xəstəliyinin ölkəmizdə daha çox yayıldığını deyən ATU-nun Onkoloji Klinikasının dosenti Nəsimi Qasımov, bu xəstəliyə dünyada və Azərbaycanda tutulma səviyyəsi, qorunma üsulları, səbəb və nəticələri barədə məlumat verib, xəstəliyin qarşısını almağın onun erkən aşkarlanmasından çox asılı olduğunu söyləyib. Həkim qeyd edib ki, 35 yaşdan sonra hər bir qadın ildə bir dəfə həkim müayinəsindən keçməlidir. Xəstəlik aşkarlanarsa, diaqnozun vaxtında və düzgün qoyulması müalicə taktikasının seçilməsinə köməklik göstərmiş olur.

Sonra proqrama uyğun olaraq Türkiyənin İstanbul Florence Nighitinge Klinikasından professor Vahit Özmen videoformatda konfransa qatılıb və "Süd vəzi xərçənginin cərrahiyyəsinin dünəni və bu günü" mövzusunda məruzə təqdim edib. Eləcə də ATU-nun Şüa diaqnostikası və terapiyası kafedrasının dosenti Mətanət Pənahova, ATU-nun Onkoloji Klinikasından t.ü.f.d. Günay Əhmədova və digər mütəxəssislər süd vəzi xərçənginin diaqnostikası, profilaktikası, müalicəsinin aktual məqamlarından söhbət açıblar.

M.ƏLƏKBƏROV

“Müəllimin vəzifəsi soruşmaq, incitmək, sıxmaq deyil, öyrətməkdir”

ATU-da tədris prosesinin yeni səviyyəyə qaldırılması Böyük Elmi Şuranın növbəti iclasında diqqət mərkəzində olub

Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının növbəti iclası keçirilib. İclası universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq gündəlikdə duran məsələləri diqqətə çatdırıb.

Sonra “Azərbaycan Tibb Universitetində 2021/2022-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri” barədə Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevin hesabat məruzəsi dinlənilib.

Ölkə başçısı İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın təhsilimizin, pedaqoji elmimizin inkişafında yeni bir mərhələ açdığını vurğulayan S.Əliyev bu günlərdə Azərbaycan Tibb Universitetinin tədris proqramlarının beynəlxalq akkreditasiyadan keçməsini qürurverici bir hadisə kimi dəyərləndirib. Bu münasibətlə ATU-nun rektoru, professor Gəray Gəraybəylinin bir qrup universitet əməkdaşı ilə görüşü zamanı akkreditasiya prosesinin əhəmiyyəti haqda danışdığını bildirib: “Rektor ali məktəbin beynəlxalq nüfuzu üçün mühüm önəm kəsb edən akkreditasiyanın uğurla keçməsi münasibətilə universitet əməkdaşlarını təbrik edib, bu prosesin layiqli şəkildə aparılmasında əməyi olan hər kəsə təşəkkürünü çatdırıb. Görüşün sonunda ATU-nun beynəlxalq akkreditasiya prosesinə hazırlıq və proqramların özünütəhlil hesabatlarının hazılanmasında fərqlənən universitet əməkdaşları təşəkkürnamə ilə təltif olunub”.

S.Əliyev 2020/2021-ci tədris ilindən Ali təhsilli tibb bacısı, Fizioterapiya və tibbi reabilitasiya, magistratura səviyyəsi üzrə isə Səhiyyə sahəsində menecment və Klinik psixologiya ixtisasları üzrə də qəbul aparıldığını deyib: “Bununla yanaşı, mövcud ixtisasların yeni tədris ili üçün standartı hazırlanıb və təsdiq edilib. Belə ki, yeni standartlarda cərrahi və terapevtik yönlü fənlərin profilləşməsinə üstünlük verilib, həm də bəzi fənlərin standartdan çıxarılması, bəzi yeni fənlərin əlavə olunması nəzərdə tutulub ki, bu da kafedralarda struktur dəyişikliklərinin aparılması zərurətini yaradıb”.

Hesabat məruzəsində cari tədris ilinin payız semestrinin imtahan sessiyasının ayrı-ayrı fakültə və kurslar üzrə nəticələri də öz əksini tapıb: “İmtahan sessiyasını 6331 nəfər tələbə müvəffəqiyyətlə başa vurub. Onlardan 958 nəfər (14.4%) sessiyanı “əla” qiymətlərlə, 3534 nəfər (53.2%) “əla” və “yaxşı” qiymətlərlə, 1839 nəfər (27.7%) qarışıq qiymətlərlə bitirib. Sessiyanın nəticələrinə görə 303 nəfər (4.5%) tələbənin akademik borcu (F) qalıb. Onlardan 217 nəfərin yalnız 1 fəndən, 45 nəfərin 2 fəndən, 41 nəfərin 3 fəndən akademik borcu var”.

Məruzəçinin sözlərinə görə, rektorun əmri ilə payız semestrinin imtahan sessiyası dövründə virtual test mərkəzində aparılan imtahanlarda kafedraların müdirləri və digər əməkdaşları iştirak etməli idi: “Lakin heç də bütün kafedra müdirləri və əməkdaşları imtahanın gedişində iştirak etmədi. Əgər iş belə davam edərsə, gələcəkdə kafedralara ayrılan dərs yükündə müəyyən korrektələr olunacaq. Yəni saatlar yalnız testlərin hazırlanmasına və yenidən işlənilməsinə veriləcək. Bu da ola bilər ki, bir sıra kafedraların dərs yükünə mənfi təsir göstərsin. Düşünürəm ki, heç də bütün kafedralarda çalışan professor-müəllim heyəti tələbələrin gündəlik bilik səviyyəsinin təyin olunmasına eyni meyarlarla yanaşmır. Tələbələrin də qeyd etdiyi kimi, aşağı kurslarda gündəlik sorğularda qiymətlər “qısqanclıqla”, yuxarı kurslarda isə “əliaçıqlıqla” yazılır. Bütün bu halları aradan qaldırmaq və ortaq nöqtəni tapmaq üçün ayrı-ayrı təcrübəli müəllimlərin iştirakı ilə kredit sistemi ilə tədrisin təşkilinə, biliyin qiymətləndirilməsinə həsr olunmuş elmi-praktik konfransların keçirilməsinə və digər universitetlərin də professor-müəllim heyətini dəvət etməklə qabaqcıl təcrübənin öyrənilməsinə böyük ehtiyac var”.

İmtahanların kompyuterlərlə aparılmasının obyektivlik və şəffaflığın təmin olunması, tələbələr üçün bərabər şəraitin yaradılması, subyektiv təsirlərin aradan qaldırılması, ictimai rəyin müsbət istiqamətdə dəyişməsi baxımından fərqləndiyini söyləyən prorektor, eyni zamanda test üsulunun təkmilləşdirilməsinə də böyük ehtiyac duyulduğunu diqqətə çatdırıb. Onu da vurğulayıb ki, testlərin düşündürücü olması, tapmaca, əzbərləmə elementlərinin aradan götürülməsi, ilbəil məxfi sualların artırılması, semestr boyu isə təməl və ixtisas fənləri üzrə peşə fəaliyyəti üçün vacib olan bilik və bacarıqların mənimsənilməsi təmin edilməlidir.

S.Əliyev universitetimizin reytinqinə görə ölkə universitetləri arasında yüksək yer tutduğunu məmnunluqla xatırladıb. Bunu sübut edən faktorlardan biri kimi Dövlət İmtahan Mərkəzi tərəfindən aparılan imtahanlar zamanı IV qrup üzrə yüksək bal toplayanların böyük əksəriyyətinin ATU-nu seçməsini göstərib.

Çıxışında Apellyasiya Komissiyasının fəaliyyətinə də geniş yer ayıran prorektor qeyd edib ki, komissiyaya daxil olan şikayətlərin xeyli hissəsinin əsaslı olması təəssüf doğurur: “Səbəblər içərisində birinci yeri yenə də kafedralarda tərtib olunan testlərdə buraxılan texniki səhvlər tutur. Apellyasiya zamanı müraciətlərin əksər hissəsinin təsdiqlənməsi bəzi kafedralarda testin hazırlanmasında müəyyən nöqsanlara yol verildiyini göstərir. Ona görə də həmin kafedraların müdirləri, ekspertlər gələcəkdə bu məsələlərə daha diqqətli yanaşmalıdırlar”.

Hesabatda tələbələrin, dinləyicilərin və rezidentlərin ölkələr üzrə statistikası da açıqlanıb. Elmi Şura üzvlərinin nəzərinə çatdırılıb ki, universitetimizdə xarici tələbələrin sayının artırılması məqsədilə müvafiq dekanlıq təhsil sahəsində dünyanın müxtəlif ölkələri və universitetləri ilə əlaqələri genişləndirir: “Xarici ölkələrdən universitetimizdə təhsil almaq üçün müraciət edən tələbələrin sayı ildən-ilə artır. Tədrisin ingilis dilində aparılması xarici ölkə vətəndaşlarının universitetimizə cəlb olunmasında böyük əhəmiyyət kəsb edir”.

Professor Sabir Əliyev kafedraların maddi-texniki bazasının ilbəil yaxşılaşması, yeni dərsliklərin və dərs vəsaitlərin nəşr edilməsi, eləcə də professor-müəllim heyətinin keyfiyyətcə yenilənməsinə baxmayaraq, qarşıda hələ bir sıra mühüm vəzifələrin durduğunu söyləyib, yeni semestrin universitet kollektivi üçün daha uğurlu olacağına əminliyini bildirib.

Bundan sonra çıxış edənlər hesabat məruzəsində toxunulan məsələlərlə bağlı fikirlərini bölüşüblər. ATU-nun Apellyasiya Komissiyasının sədri, professor Eldar Qasımov komissiyanın fəaliyyəti haqqında şura üzvlərinə məlumat verib. O, komissiyanın tərkibinə daxil edilən işçilərin əksəriyyətinin müxtəlif səbəblərdən apellyasiyada iştirak etməməsinin böyük problem yaratdığını deyib. E.Qasımov müraciətlərin həddindən artıq çox olmasına, açıq testlərin qiymətləndirilməsində müəyyən çətinliklərin yaranmasına baxmayaraq, prosesi uğurla apara bildiklərini söyləyib və gələcəkdə komissiyanın tərkibini yeniləməyi təklif edib.

Bioloji kimya kafedrasının müdiri, professor Gülnarə Əzizova aralıq qiymətləndirmə zamanı bəzi çətinliklərlə üzləşsələr də, imtahan prosesində problemin öz həllini tapdığını, kafedraya aid 200-dən çox apellyasiya müraciətinin cəmi 3-nün əsaslı olduğunu bildirib.

ATU-nun rektoru yanında İctimai Nəzarət və Məsləhət Şurasının sədr müavini Aidə Bəndəliyeva İmtahan Mərkəzində keçirdikləri reydin nəticələrindən danışıb. İmtahan prosesinin çox rahat, şəffaf keçdiyini, burada tətbiq olunan yeniliklərin digər ali məktəblərdə də tətbiq olunması təşəbbüsü ilə çıxış edəcəklərini vurğulayıb.

Məruzə və çıxışlarda səslənən fikirlərə münasibət bildirən rektor tədris prosesini daim diqqətdə saxlamağın vacibliyini nəzərə çatdırıb. Tədris prosesinin təşkilində əsas işin kafedra müdirlərinin üzərinə düşdüyünü vurğulayan professor G.Gəraybəyli qeyd edib ki, dərsin gedişatı, keyfiyyəti, metodologiyası, qiymətləndirilməsi, testlərin hazırlanması və imtahanların keçirilməsinə böyük məsuliyyətlə yanaşılmalıdır. Apellyasiyanın böyük əmək, eyni zamanda əsəb tələb edən bir proses olduğunu xatırladan universitetin rəhbəri müvafiq qurumlara qısa müddətdə Apellyasiya Komissiyasının tərkibini yeniləməyi tapşırıb. Əgər zərurət yaranarsa, komissiya üzvlərinin sayını artırmağı, tərkibə texniki işçilərin, mütəxəssislərin əlavə olunmasını, bu haqda əsasnamə hazırlanmasını tövsiyə edib.

Universitetimizin beynəlxalq akkreditasiyadan keçməsi kimi ciddi bir hadisə haqqında təbii olaraq çox danışıldığını söyləyən rektor, bu uğurumuza kölgə salmağa çalışanların da olmasından təəssüfləndiyini deyib: “Bəzi adamların bu əlamətdar hadisəni gözdən salmaq cəhdlərinə baxmayaraq, biz çoxsaylı işlər görür, bu istiqamətdə təkmilləşdirmə aparırıq. Artıq Pakistan səfiri ilə görüşüm olub. Türkiyə böyükelçisi ilə də görüşüm gözlənilir. Bu görüşlərdə əsas məqsəd universitetimizdə keçirilmiş akkreditasiyanın nəticələrini müzakirə etmək və xarici tələbələrin ölkəmizə daha çox sayda gəlməsinə nail olmaqdır. Bundan sonra əsas hədəfimiz universitetimizin beynəlxalq reytinqlərə düşməsi məsələsidir. Bütün bunlar tədris prosesinin yeni səviyyəyə qaldırılmasına hesablanıb”.

Professor G.Gəraybəyli bütün sahələrdə olduğu kimi, tibb sahəsində də rəqabət mühitinin yarandığını, bu nöqteyi-nəzərdən Azərbaycanda da həkim olmaq üçün seçim imkanlarının artdığını diqqətə çatdırıb. Ona görə də həkim olmaq istəyənlərin ATU-nu seçməsi üçün reytinq siyahısında daha yüksək yerlər tutmağımızın zəruriliyini önə çəkib.

Rektor yekun nitqində müəllimlərin professional səviyyəsini yüksəltmək istiqamətində aparılan işlərə də toxunub. Bildirib ki, professor-müəllim heyətinin fəaliyyətinin bal-reytinq sistemi ilə qiymətləndirilməsinə yenidən baxılmalıdır. Həmçinin tələbənin biliyinin qiymətləndirilməsinin ən ağrılı məsələ olduğunu diqqətə çatdıran professor G.Gəraybəyli nəzəri kafedralarda tələbənin daha çox incidildiyini, kliniki kafedralarda isə əksinə, tələbəyə daha çox güzəşt edildiyini vurğulayıb. “Əslində qiymətləndirmənin müəllimin səlahiyyətinə daxil edilməməsi praktikası Avropada çoxdan var, artıq bizdə də tətbiq edilməyə başlanıb. Müəllimin vəzifəsi soruşmaq, incitmək, sıxmaq deyil, öyrətməkdir. Qiymətləndirmə yalnız imtahanı aparan qurumun səlahiyyətinə aiddir. Beynəlxalq təcrübədən yararlanaraq qiymətləndirmə testlərininin keyfiyyətinə də xüsusi diqqət yetirilməlidir”.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra digər məsələlərə də baxılıb. Şura üzvlərinə son günlərdə aparılan kadr dəyişiklikləri haqqında məlumat verilib. Ödənişli əsaslarla təhsil alan əcnəbi dinləyici, tələbə və rezidentlər üçün təhsil haqlarının müəyyənləşdirilməsi barədə məsələ də öz həllini tapıb. Beynəlxalq mübadilə proqramları çərçivəsində dəvət almış tələbələrə xüsusi güzəştlərin edilməsi qərara alınıb. Həmçinin əcnəbi vətəndaşların ATU-ya qəbulunun daha da təkmilləşdirilməsi ilə bağlı təkliflər məqbul sayılıb. Bundan başqa, ATU-nun Elmi Şurasının ATU-da Səhiyyə Nazirliyi və ÜST-ün dəstəyi ilə yaradılacaq yeni geniş profilli treninq mərkəzi haqda qərarı ləğv olunub.

Sonda dərslik, dərs vəsaitləri və metodik vəsaitlərin nəşrinə razılıq verən Elmi Şura, elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçisini, eləcə də elmi adları təsdiqləməklə öz işini yekunlaşdırıb.

Arif MƏMMƏDLİ

Xanımların günü – ilin hər günü

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edib.

Paylaşımda deyilir: "Əziz qadınlar! Sizin hər birinizə möhkəm cansağlığı, tükənməz sevgi, sevinc dolu günlər və səadət arzulayıram!"

ATU-nun əməkdaşları və tələbələri 8 Mart bayramı münasibətilə bütün qadınları təbrik edib

1857-ci il martın 8-də ABŞ-ın Nyu-York şəhərində fəaliyyət göstərən tikiş fabriklərinin birində çalışan yüzlərlə qadın etiraz aksiyası keçirirdi. Aksiyanın səbəbi kişilərə nisbətən az maaş almaları, iş saatlarının çox olması və pis şəraitdə işləmələri idi. Son nəticədə etirazçılar ciddi cəzalandırılır, o cümlədən 129 qadın oda atılaraq yandırılır.

Hadisədən 53 il sonra - 1910-cu ildə alman siyasətçisi, Almaniya Kommunist Partiyasının yaradıcılarından hesab olunan Klara Setkin 8 martı Beynəlxalq Qadınlar Günü kimi qeyd etmək təklifini irəli sürür. Bu təklif qəbul olunur və zaman ötdükcə populyarlıq qazanır.

Sovet dövründə geniş şəkildə qeyd olunan bu bayram ölkəmiz müstəqillik əldə etdikdən sonra da öz aktuallığını itirmədi. Bunu dövlətimizin və Azərbaycan kişilərinin xanımlarımıza olan diqqətinin bariz nümunəsi hesab etmək olar.

Bu bayram münasibətilə biz də universitetimizdə çalışan və təhsil alan 8 xanımın təəssüratlarını öyrəndik.

Əsaslı kitabxananın direktoru Ziyafət Eminova yurd həsrətli xanımlarımızdandır: "Özüm Qubadlı rayonundanam. 30 ilə yaxın idi ki, heç bir bayramı ürəkdən qeyd edə bilmirdik. Amma artıq ikinci ildir ki, 8 Martı o biri bayramlar kimi sevinc, qürur hissi ilə keçirirəm. Bunun üçün Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Torpaqlarımızın azadlığı uğrunda şəhid olanların ruhu qarşısında baş əyir, qazilərimizə isə cansağlığı arzulayıram. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım başda olmaqla, bütün ana və bacıları, o cümlədən universitetimizin oxucularının xidmətində dayanan və əksəriyyəti qadınlardan ibarət olan kitabxananın zəhmətkeş xanımlarını ürəkdən təbrik edirəm. Növbəti bayramımızı doğma Qarabağda keçirməyi arzulayıram. 88 yaşlı anam Sevən xanımın simasında bütün anaların bayramı mübarək olsun".

ATU-nun Kadrlar şöbəsinin müdiri Raifə Aslanova 8 Martın gəlişinə çox sevinir: "Çünki hamı əhatəsində olan xanımlara diqqət və qayğı göstərir, xoş sözlər söyləyir. Fikirləşirsən ki, bu cür bayramlar tez-tez olardı. Xanımlar özlərinə qarşı diqqət hiss edəndə, əhval-ruhiyyələri yüksəlir. O zaman bişirdikləri xörək də dadlı-ləzzətli olur, gördükləri işlərdən də sanki "gül ətri" gəlir. Xanımlarımızın hamısı yaraşıqlı və cazibədardır. Onlar gözəl ana, bacı, nənə, həyat yoldaşı olurlar. Qadınların qədir-qiymətlərinin bilinməsi kişilərdən asılıdır. Mən Azərbaycan xanımlarını, universitetimizin xanım əməkdaş və tələbələrini səmimi qəlbdən təbrik edir, hamısına xoşbəxtlik, subaylara isə həm də ailə qurmağı arzu edirəm".

Tədris Terapevtik Klinikanın baş həkimi Fəridə Hacıyeva bizim cəmiyyətdə qadınların çox böyük rola malik olduğunu bildirir: "Hələ uşaqlıqdan görürdük ki, xanımlar 8 Martda daha baxımlı, əhval-ruhiyyələri isə yüksək olurdu. Onlara müxtəlif hədiyyələr, gül-çiçəklər verilir, haqlarında xoş sözlər deyilirdi. Arzu edirəm ki, təkcə martın 8-də deyil, hər gün xoş sözlər eşidək. Yadımdadır, ilk dəfə təbrik etdiyim anam olub. Bunun üçün xüsusi hazırlaşmış, onu çox təmtəraqla təbrik etmişdim. Özüm isə ilk dəfə bayram təbrikini atamdan görmüşəm. Biz iki bacıyıq. Hər il martın 8-də səhər tezdən atam anamızı və bizi təbrik edərdi. Gözümüzü açardıq ki, bizə hədiyyə edəcəyi gül dəstələrini gətirib. İndi bu estafeti həyat yoldaşım davam etdirir. Mən də klinikamızda çalışan bütün xanımların bayramını təbrik edirəm".

ATU-nun İmtahan Mərkəzinin müdiri Ülkər Cəfərova deyir ki, mart ayını çox sevir: "Bu ay gələndə təbiətdə oyanış hiss olunur. Səhər tezdən quşların səsini eşitmək insanın ruhunu dincəldir. Mənə elə gəlir ki, yenilənirəm. Bu ay bayramlar ayıdır. Bizim bayramımız da mart ayında qeyd olunur. Düşünürəm ki, elə qadının varlığı özü bayramdır. Çünki qadın dünyaya övlad gətirir, ailəni idarə edir, hər cür zəhmətə qatlaşır. Bir ailədə ana dünyasını dəyişirsə, sözün əsl mənasında ailə yetim qalır. Çünki ata ananı əvəz edə bilmir. Amma bizim qadınlarımız bəzən gənc yaşlarında həyat yoldaşlarını itirəndə, evdə atanın yükünü də öz çiyinlərinə götürür, övladlarını idarə edirlər. Millətimin qadınları olduqca fədakardır. Xanımlarımızı sevməli, dəyərləndirməli və qədrini bilməliyik".

Hərbi tibb fakültəsinin Hərbi cərrahiyyə kafedrasının müəllimi, tibb xidməti kapitanı Sevinc Orucova çalışdığı kollektivdə kişilərin üstünlük təşkil etdiyini diqqətimizə çatdırdı: "Tarixən Azərbaycan kişisi, türk kişisi xanımlara, o cümlədən həyat yoldaşına dəyər verib. Hazırda Müdafiə Nazirliyinin Akademiyasında dil kursu keçirəm. Biz bu qrupda iki xanımıq. Bizə xüsusi diqqət göstərir, xoş sözlər deyir, hədiyyələr verirlər. Azərbaycan zabiti sözün əsl mənasında centlemendir. Digər işlədiyim kollektiv isə həkimlərdən ibarətdir. O kollektivdə də xanımlar eyni diqqət və qayğı ilə əhatə olunurlar. Gözəl, sağlam düşüncəli övladların, o cümlədən vətənpərvər zabitlərin yetişməsində Azərbaycan qadınlarının rolu müstəsnadır. Biz belə layiqli övladların qəhrəmanlığını Vətən müharibəsində bir daha gördük. Vətənimizə qorxmaz, cəsarətli, vətənpərvər övladlar bəxş etdiyinə görə, başda şəhid və qazi anaları-bacıları olmaqla, bütün Azərbaycan xanımlarını təbrik edirəm. Heç şübhəsiz, universitetimizdə çalışan nəcib xanımlar və tələbələrimiz də təbriklərimin sırasındadır".

İnformasiya sistemlərinin təşkili və idarəolunması mərkəzinin əməkdaşı Cəmilə Quliyeva da martın 8-də əhval-ruhiyyəsinin yüksəldiyini, diqqət və qayğı ilə əhatələndiyini görməyin xoş olduğunu bildirir: "Heç olmasa, 8 Martda kişilər zaman ayıraraq, öz analarını, həyat yoldaşlarını, qızlarını və yaxın çevrələrində olan xanımları təbrik etməlidirlər. Yadımdadır, bizə uşaq bağçasında və məktəbdə oxuduğumuz illərdə anamıza təbrik məktublarını necə yazmağı öyrədərdilər. Hər kəs ürək sözlərini yazardı. Bu da bizi anamızı təbrik etməyə həvəsləndirərdi. Həmin günə anamızdan xəlvət xüsusi hazırlaşar, ona zərf hazırlayardıq. Zərfdə xoş sözlər yazar, rəngbərəng kağızlardan bəzəklər, ürək və çiçəklər düzəldərdik. İlk təbrik etdiyim anam olub. Hədiyyəmi görüb, çox sevinmişdi. Mənə elə gəlir ki, bu bayram gələndə, sanki yaz gəlir. Çünki insanların üz-gözlərində bir sevinc hiss olunur. Bütün Azərbaycan xanımlarının həmişə gülərüz, sevincli olmalarını arzu edirəm".

İctimai səhiyyə fakültəsinin tələbə dekanı Fidan Həsənlinin sözlərinə görə, diqqət və sevgi göstərilən hər bir bayram özəldir: "Xüsusilə də 8 Mart bayramı... Başda şəhid və qazi anaları olmaqla bütün analarımızı və o cümlədən məni dünyaya bəxş edən Nuranə xanımı səmimi qəlbdən təbrik edirəm. Həyatımızın hər bir mərhələsində bizə dəstək olan, uğurlara ruhlandıran xanımlarımızın özləri, əslində ən çox diqqətə ehtiyac duyanlardır. Məhz onlar bu diqqətdən və sevgidən stimul alıb uşaq böyüdür, ailənin möhkəmlənməsi üçün əllərindən gələni edirlər. Ona görə də, xanımlarımızın hər biri xoş sözlərə, gözəl diləklərə layiqdir. Çünki hər bir xanım gələcəyin anasıdır. Mən də çox şanslıyam ki, ailəmdə, oxuduğum universitetdə və işlədiyim kollektivlərdə həmişə diqqət, qayğı və sevgi görmüşəm. İnanıram ki, bu, gələcək həyatıma da müsbət təsirini göstərəcək".

II Müalicə-profilaktika fakültəsinin 1-ci kurs tələbəsi Burçin Kaya 8 Martda özünü daha inamlı, hər şeyin öhdəsindən gələ biləcək gücdə hesab edir: "Özümə güvənim daha da artır. Qadının kişi ilə bərabər hüquqlara malik olduğunu bir daha hiss edirəm. Bu gün dünya çapında hər sahədə uğur qazanmış qadınların yad edilməsi, onların nümunə kimi gələcək nəsillərə tanıdılması təqdir olunmalı haldır. Hansısa gənc xanım hansısa sahədə uğur qazanmış, tanınmış bir şəxsi özünə ideal seçə, ona bənzəməyə çalışa bilər. Xanımlarımızın öz bayramının olması çox gözəldir. İlk dəfə mən də çoxları kimi anamı təbrik etmişəm. Bu bayramda xalqımıza görkəmli simalar bəxş etmiş anaları da yada salıram. İlk dəfə bu bayramı ikinci Vətənim Azərbaycanda qeyd edirəm. Bu baxımdan, təbriklər də fərqlidir".

Qabil ABDULLAYEV

Baharın gəlişinə həsr olunmuş Novruz bayramı hər il geniş miqyasda qeyd edilir. Elmi araşdırmalara əsasən, bu bayramın tarixi çox qədimlərə - Zərdüşt peyğəmbərin yaşadığı dövrlərə gedib çıxır. Ölkəmizdə hər kəs tərəfindən səbirsizliklə gözlənilən bu bayram hər bir evdə təntənəli şəkildə qarşılanır. Əsrlərdən üzü bəri hər zaman olduğu kimi, Novruzun atributları nümayiş olunur, milli ənənəvi mərasimlər keçirilir, yeməklər hazırlanır.

Novruz bayramında necə qidalanmalıyıq?

Mədədə ağır yüklənmə baş verməsin deyə, yüksək kalorili qidaları eyni vaxtda qəbul etmək məsləhət görülmür

Bunlardan biri də Azərbaycan mətbəxində özünəməxsus yeri olan Novruz şirniyyatlarıdır. Eləcə də bayram süfrələrinə müxtəlif nemətlər, o cümlədən ət məhsullarından hazırlanmış yüksək kalorili yeməklər düzülür. Bu isə, birdən-birə orqanizmimizin yüklənməsinə, nəticədə artıq çəkiyə, hətta bəzən ciddi fəsadlara gətirib çıxarır. Elə isə bu bayram günlərində necə qidalanmalı, nələrə diqqət etməliyik? Mövzu ilə bağlı Azərbaycan Tibb Universitetinin Qidalanma və tibbi ekologiya kafedrasının müdiri, dosent İbrahim Əhmədovun fikirləri maraqlıdır: "Bilirik ki, təbiətin oyanması Novruzla başlanır. İnsan da təbiətin bir parçasıdır. Təbiətdə heç nə sabit və daimi olmur. O cümlədən insan orqanizmində də daim mürəkkəb dəyişikliklər gedir. İndi qarşıdan bahar fəsli gəlir. Fizioloji cəhətdən baxdıqda, qış yaza doğru getdikcə, gün uzanır. Bununla yanaşı olaraq, insanın bədənində də temperatur yüksəlir. Baharın gəlişi ilə insanlara xoş əhval gəlir, təbiətdə baş verən dəyişikliklər insanın ruhunu oxşayır. Təbiət oyandıqca, canlı orqanizmdə maddələr mübadiləsi də sürətlənir. Çünki qış mövsümündə bədəndə vitaminlər, mineral maddələr, mikroelementlər tədricən azalmış, immunitet zəifləmiş olur. Baharda gün uzandıqca insanın əmək qabiliyyəti yüksəlir və orqanizmdə qidaya tələbat çoxalır. Bununla yanaşı, bədən yeni qidalar - müxtəlif tərəvəzlər, ağartı məhsulları və s. qəbul etdiyi üçün mədə-bağırsaq sistemində qeyri-adi hallar özünü göstərir, eləcə də mövsümi qriplər baş qaldırır. Bir sözlə, kalorili qidaların qəbul edilməsi təkcə həzmdə, mədə-bağırsaq sistemində problemlərin yaranmasına yox, həm də təzyiqin yüksəlməsinə, şəkərin qalxmasına və hətta qaraciyər xəstəliklərinə də gətirib çıxarır. Ona görə də hər kəs özünün həkimi olmalı, yağlı-zülallı yeməklərin qəbulunda ehtiyatlı olmalı və nisbətən yüngül yeməklərə üstünlük verməlidir".

Kafedra müdiri bayram süfrəsi haqda da fikirlərini bölüşdü: "Novruz bayramında süfrəni şəkərbura, paxlava, qoğal, badambura və s. şirniyyatlarsız, plovsuz təsəvvür etmək mümkün deyil. İnanca görə süfrədə 7 növ yemək yer almalıdır. Mən bu bayramı daha çox şirniyyat bayramı kimi xarakterizə edərdim. Çünki qısa müddət kəsiyində orqanizmində çox böyük şəkər yüklənməsi baş verir. Qeyd edim ki, bu həm kiçik, həm də böyük insanların orqanizminə aiddir. İnsanlar bəzən düşünür ki, bayram günlərində 1-2 kq artıq çəki alsalar da, sonradan əvvəlki çəkilərini bərpa edə biləcəklər. Lakin məsələ bunda deyil, artıq çəkidən hansısa şəkildə azad olmaq olur. Amma yüksək miqdarda şəkərin birdən-birə orqanizmə daxil olması yaxşı hal deyil. Ona görə də süfrənin üzərindəkilərə mütləq diqqət yetirməliyik. Ən kalorili yemək-ləri eyni gündə orqanizmimizə daxil etməməliyik. Məsələn, eyni vaxtda həm plov, həm də şirniyyatları qəbul etmək olmaz. Çünki mədədə ağır yüklənmə yaranır. Yaxşı olar ki, şirniyyatlardan istifadə edəcəyimiz gün, qızardılmış deyil, suda qaynadılmış ət məhsullarına üstünlük verək. Və ya kabablardan, yağ əlavə edilmədən bişirilən ətlərdən qəbul edə bilərik".

Deməli, gəlişinə ürəkdən sevindiyimiz Novruz bayramını xoş əhvalda da başa vurmaq istəyiriksə, qidalanmağımıza diqqət etməliyik. Bayramınız mübarək olsun!

Əməkdaşımızın rəhbərlik etdiyi elmi iş Türkiyədə birinci yerə layiq görülüb

Türkiyənin Adana şəhərində 5-ci Çukurova Qastro-İntestinal Xəstəliklər və Cərrahiyyəsi Konqresinin mükafatlandırma mərasimi keçirilib. Mərasimdə Azərbaycan Tibb Universitetinin əməkdaşları da təltif olunub.

Martın 4-6-da keçirilən beynəlxalq konqresdə ATU-nun Ümumi cərrahiyyə kafedrasının əməkdaşı, Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Cəmiyyətinin sədri, tibb elmləri doktoru Müsviq Həsənov moderator və məruzəçi qismində iştirak edib. Konqresin açılışında çıxış edən M.Həsənov ATU-nun rektoru, professor Gəray Gəraybəylinin salamlarını konfrans iştirakçılarına çatdırıb, həmçinin rəhbərlik etdiyi Cəmiyyət adından təşəkkür plaketini təqdim edib. Onun məruzəsi böyük maraqla qarşılanıb.

Sonda konqresdə aktiv iştirakı və dolğun çıxışına görə ATU əməkdaşı xüsusi mükafata layiq görülüb. Həmçinin Müşfiq Həsənovun rəhbəri olduğu ERCP xəstəlikləri ilə bağlı elmi iş birinci yerə layiq görülüb. Başda t.e.d. Müşviq Həsənov olmaqla, həkimlərimiz Aqil Ağakişiyev və Həcər Ağakişiyeva "Uluslararası Katılımlı Çukurova Gastro-İntestinal Hastalıklar və Cerrahisi konqresi", "1.Gastroenteroloji Diyetisyenliği konqresi", "5.Gastro-İntestinal Hastalıklarda Hemşirelik konqresi"ndə təqdim etdikləri elmi işə görə "Sözel Sunum Birincilik Ödülü"nə layiq görülüblər.

Qeyd edək ki, Adana şəhərində gerçəkləşən konqresə 5 ölkənin nümayəndə heyətləri qatılıb. Azərbaycanda və eyni zamanda dünyanın bir sıra ölkələrində tibb sahəsində müvəffəqiyyətləri, peşəkar müalicə və müayinə metodları ilə seçilən məşhur həkimlərimizin iştirak etdiyi bu tədbirdə müasir tibbi proseslər ətrafında geniş fikir mübadiləsi aparılıb.

THİK sədri fəal tələbələrlə görüşüb

Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Qoşqar İsmayılov ATU-da təhsil alan ictimai fəal tələbələrlə görüşüb. Tanışlıq xarakterli görüş zamanı tələbələr THİK-in fəaliyyəti, indiyədək icra oluna layihələr və planlaşdırılan işlər barədə fikirlərini bölüşüblər.

Görüşdə, həmçinin qarşıdan gələn dövr üçün fəaliyyət planı müzakirə olunub, bəzi əlamətdar tarixlərin təntənəli surətdə qeyd olunması, maraqlı festivallar, intellektual yarışların təşkili ilə bağlı razılıq əldə edilib.

Qeyd edək ki, Qoşqar İsmayılov bu yaxınlarda THİK sədri kimi fəaliyyətə başlayıb.

Kitablarda yazılmayan hallarla rastlaşanda, şəxsi təcrübə köməyə gəlir

"Mən ön kolporafiya, levatoroplastika əməliyyatını necə edirəm?" mövzusunda vebinar keçirilib

"Mən əməliyyatları necə edirəm?" layihəsi çərçivəsində növbəti vebinar keçirilib. Tədris Cərrahiyyə Klinikasında baş tutan tədbiri layihənin rəhbəri, I Cərrahi xəstəliklər kafedrasının assistenti Elman Əzimov açaraq vebinarın mövzusunu diqqətə çatdırıb.

Klinikanın direktoru, professor Surxay Hadıyev bu cür ənənəvi vebinarların əvvəllər də keçirildiyini, amma professor Məlahət Sultanovanın Rezidentura və magistratura şöbəsinə rəhbərliyi dövründə daha da intensivləşdiyini vurğulayıb. Qeyd edib ki, artıq öz sahəsində püxtələşmiş, tanınmış mütəxəssislərin cərrahi əməliyyat təcrübəsini rezidentlərlə bölüşməsi bir məktəbdir: "Bunları kitablarda tapmaq mümkün deyil. Standartdan kənar hallarla rastlaşanda, ancaq şəxsi təcrübə köməyə gəlir. Cərrahiyyə əl işidir. Cərrahiyyədə kimin başı əlindən qabaqda işləyirsə, o, yaxşı cərrahdır. Əməliyyatın düşünülməsi, planlaşdırılması, texnologiyası, gedişatında yaranan fəsadlar və onların qarşısını almaq, əməliyyatdan sonra xəstəyə necə qulluq etmək səriştəsi təcrübədə qazanılır".

Qarşılıqlı təcrübə zamanı öyrənən tərəfin də hazırlıqlı olmasının vacibliyinə toxunan professor S.Hadıyev, klinikanın rəhbərliyi adından təşkilatçılara minnətdarlığını bildirib və vebinarın işinə uğurlar arzulayıb.

Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova, I Cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov və Uşaq cərrahlığı kafedrasının assistenti, Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə koordinatoru Namiq Xəlilov da çıxış edərək nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsi baxımından bu cür layihələrin xüsusi əhəmiyyət kəsb etdiyini söyləyiblər.

Bundan sonra layihə çərçivəsində I Cərrahi xəstəliklər kafedrasının dosenti Solmaz İmanovanın "Mən ön kolporafiya, levatoroplastika əməliyyatını necə edirəm?" mövzusunda məruzəsi dinlənilib. İlk növbədə mövzunun aktuallığına diqqət çəkən məruzəçi inkişaf etmiş ölkələrdə, o cümlədən Azərbaycanda əhalinin bütün yaş kateqoriyaları arasında çanaqdibi orqanlarının patologiyası, onların sallanma sindromunun geniş yayıldığını bildirib. Onun sözlərinə görə, cərrahi müalicə üsullarının seçilməsinin çətinlikləri, cərrahi müalicənin əlverişli nəticələrinə rastgəlmə tezliyinin qənaətbəxş olub-olmaması, cərrahi ağırlaşmaların yüksək başvermə göstəriciləri, xəstələrin tibbi-sosial reabilitasiya müddətinin aylarla davam etməsi, əmək qabiliyyətinin enməsi və yaxud itməsi, həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi bu konseptual problemin əsas amillərindəndir.

S.İmanova qeyd edib ki, hamiləlik keçirmiş qadınlarda daha çox rast gəlindiyi üçün bu patologiya ciddi tibbi-sosial problem kimi qiymətləndirilir: "Bu problem xəstələri həm fiziki-sosial və mənəvi əzablara düçar edir, həm də onların cəmiyyətdən təcrid olunmasına səbəb ola bilir. Bu patologiyadan əziyyət çəkən hər 3 xəstədən biri urodinamik, 2-sindən biri isə defekasiya pozğunluqları ilə rastlaşır".

S.İmanova bu patologiyanı əmələ gətirən əsas faktorları da diqqətə çatdırıb: "Birləşdirici toxumanın çatmazlığı, anadangəlmə displaziyalar, çoxsaylı doğuşlar, doğuş travmaları, müvafiq bölgədə travmalar və cərrahi əməliyyatlar patologiyanın yaranmasına səbəb olur. Eyni zamanda qarındaxili hipertenziyaya səbəb olan bir çox amillər (ağır fiziki iş, xroniki qəbizlik, ağciyər xəstəlikləri və s.) çanaq dibinin əzələ-bağ aparatının zəifləməsi ilə nəticələnir".

Məruzəçi çanaq dibinin sallanması sindromu ilə bağlı olan sistosele və rektosele patologiyaları haqqında da ətraflı məlumat verərək bu patologiyaların müayinə üsullarından, aradan qaldırılması yollarından, illərlə apardığı təcrübənin maraq doğuran məqamlarından söhbət açıb. Bildirib ki, əsas müayinə üsullarından biri Defekoqrafiya (evakuasion proktoqrafiya) - defekasiya prosesinin rentgenoloji müayinəsidir. Bu müayinə üsulu vasitəsilə qadınlarda ən çox rast gəlinən, xüsusən də doğuşdan sonra xanımların əziyyət çəkdiyi rektosele, çanaq dibinin sallanma dərəcələri, düz bağırsağın selikli qişasının prolapsı və invaginasiyası kimi problemlər dəyərləndirilir.

Xatırladaq ki, bu müayinə üsulu ATU-nun Tədris Cərrahiyyə Klinikasında 2014-cü ildən tətbiq olunur.

Vebinarın sonunda mövzu ilə bağlı rezidentlərin sualları cavablandırılıb.

Rezidentlərin bu dəfəki qonağı professor Çingiz Rəhimov olub

Onun "Üz-çənə nahiyəsində plastika əməliyyatları" mövzusunda məruzəsi maraqla qarşılanıb

Martın 11-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ATU-nun Rezidentura və magistratura şöbəsinin təşkilatçılığı ilə ənənəvi müzakirələrin növbətisi keçirilib. Bu dəfəki məruzəni Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının müdiri, professor Çingiz Rəhimov edib.

Əvvəlcə ATU TCK-nın rezidentlər üzrə məsul şəxsi, assistent Namiq Xəlilov və universitetin Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova çıxış ediblər. Onlar öz çıxışlarında Ç.Rəhimovun elmi nailiyyətlərindən və ölkəmizdə ağız və üz-çənə cərrahiyyəsi sahəsində bir neçə qabaqcıl metodların ilk dəfə onun tərəfindən tətbiqindən söhbət açıblar. O cümlədən professorun rekonstruktiv kəllə-üz-çənə cərrahiyyəsi sahəsində ən son rəqəmli texnologiyalardan istifadə etməklə səmərəli diaqnostika və müalicə işlərini apardığı barədə rezidentlərə məlumat verilib. Əldə olunan nəticələrin dünyanın ən nüfuzlu elmi-praktiki jurnallarında dərc edildiyi bildirilib.

Sonra professor Ç.Rəhimov "Üz-çənə nahiyəsində plastika əməliyyatları" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi plastika cərrahiyyəsi, onun istiqamətləri - rekonstruksiya və estetik əməliyyatlar, yanaqların müalicəsi və əl cərrahiyyəsi ilə bağlı ətraflı məlumat verib. Bu sahədə dünyada, o cümlədən ayrı-ayrı inkişaf etmiş ölkələrdə əldə edilmiş nailiyyətlərdən və metodlardan söhbət açıb. Professor ölkəmizdə üz-çənə cərrahiyyəsi sahəsində qazanılmış təcrübə və özünün tətbiq etdiyi üsullar barədə rezidentləri məlumatlandırıb.

İştirakçıların marağına səbəb olmuş məruzədən sonra professor ona ünvanlanan çoxsaylı suallara geniş və əhatəli şəkildə cavab verib.

"Laparoskopik vərdişlər" üzrə təlim kursu başa çatıb

I Cərrahi xəstəliklər kafedrasının və Tədris Cərrahiyyə Klinikasının təşkilatçılığı ilə rezidentlər üçün keçirilən "Laparoskopik vərdişlər" üzrə təlim kursu başa çatıb. Son təlimdə çıxış edən kafedranın assistenti Elman Əzimov kurs boyunca iştirakçıların bir çox vacib sahələr üzrə bacarıqlar əldə etməsi barədə danışıb və bu tədbirlərin davamlı olacağını bildirib.

ATU-nun Rezidentura və magistratura şöbəsinin müdiri, professor Məlahət Sultanova və klinikanın direktor müavini, professor Davud Pənahov bu təlim kurslarının əhəmiyyəti barədə danışaraq, rezidentlərin yetişməsində onların çox faydalı olduğunu vurğulayıblar.

Sonra layihənin təşkilat komitəsinin üzvü, Tədris Cərrahiyyə Klinikasının rezidentlər üzrə məsul şəxsi, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov çıxış edərək rezidentlərə göstərilən hərtərəfli diqqət və qayğıdan danışıb, onların elmi və praktik təcrübələrinin təkmilləşdirilməsi üçün klinikada hər cür şərait olduğunu vurğulayıb. N.Xəlilov cərrahiyyənin bütün sahələri üzrə praktiki bacarıqların əldə olunması baxımından laparoskopik cərrahiyyənin elmi əsaslarına həsr edilmiş videomühazirələrin çox faydalı olduğunu da bildirib.

"Karl Storz" firmasının nümayəndəsi Taley Bəşirov isə kursun texniki aspektləri barədə məlumat verib. Tədbirin 2-ci hissəsində manekenlər üzərində laparoskopik vərdişlər təqdim olunub.

Qeyd edək ki, bu kurslar təhsil proqramı çərçivəsində keçirilib. Rezidentlər tibb təhsili ilə yanaşı, həm də laparoskopiya üzrə fundamental bacarıqlar, həmçinin cərrahiyyədə düyün və tikiş vərdişləri, müxtəlif növ anastomoz texnikaları ilə də yaxından tanış olublar.

Tədris Terapevtik Klinikada "Bexçet xəstəliyi" mövzusunda seminar keçirilib

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının müalicə işləri üzrə direktor müavini Fəridə Hacıyevanın və həkim-rezidentlərinin iştirakı ilə "Bexçet xəstəliyi" mövzusunda seminar keçirilib.

Seminarda çıxış edən klinikanın Revmatologiya və qastroenterologiya şöbəsinin həkim-rezidenti Sevin Həsənzadə xəstəlik və müalicə metodları haqqında ətraflı məlumat verib.

Qeyd edib ki, bexçet xəstəliyi təkrarlanan, oral və genital ülsərlər, göz, dəri, oynaq, damar və sinir sisteminin zədələnməsi ilə gedən, səbəbi bilinməyən multisistematik xəstəlikdir: "Asiyada, İpək Yolu üzərində olan ölkələrdə daha çox rast gəlinir. Bu xəstəlik əsasən 20-40 yaşlarda baş qaldırır. Kişilərdə daha aqressiv gedişli olur. Xəstəlik hər pasiyentdə fərqli klinikada gedir, zaman-zaman yüngülləşmə və ağrılaşmalar ola bilər".

Xəstəlik müalicə olunmadıqda, görmə qabiliyyətinin 50%-ə qədər itirilməsi ilə nəticələnə biləcəyini vurğulayan həkim, bexçetin yeni diaqnostik metodundan da danışıb: "Bud venasının qalınlığının təyini" bexçet xəstəliyinin yeni diaqnostik metodu kimi geniş şəkildə, xüsusilə bu xəstəliyin erkən mərhələsində, digər əlamətlər ortaya çıxmamış istifadə olunur".

Sonda klinikanın həkim-rezidentləri ilə mövzu ətrafında geniş müzakirələr aparılıb, suallar cavablandırılıb.

Dünya Kliniki İmmunoloqlar Assosiasiyasının araşdırmalarına görə, dünya əhalisinin 7-15 faizi immunitet zəifliyindən əziyyət çəkir. Bu problemə diqqət çəkmək üçün Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2002-ci ildən etibarən hər il martın 1-i Ümumdünya İmmunitet Günü kimi qeyd olunur. İmmunitetin zəifliyi və immun sisteminin gücləndirilməsi mövzusu koronavirusun dünyada təşvişə səbəb olduğu bir məqamda daha çox aktuallıq kəsb edir.

İmmunitet – bizi qoruyan qalxan

Professor Gülnarə Nəsrullayeva deyir ki, yalnız ciddi və davamlı pozğunluqlar aşkar olunduqda, immun sisteminə dərman müdaxiləsi təyin edilir

Mövzu ilə bağlı üz tutduğumuz ATU-nun Elmi Tədqiqat İmmunologiya Laboratoriyasının müdiri, professor Gülnarə Nəsrullayevadan ilk olaraq immunitet sistemi haqda məlumat verməsini istədik: "İmmunitet insanın özünün daxili tamlığını və yeganəliyini qoruyan bir müdafiə mexanizmidir. Bu mexanizm ilk növbədə bakteriya, virus və digər törədicilərdən, həmçinin infeksiyalardan qoruyur. Bəzi səbəblərdən immun sisteminin funksional yetməzliyi baş verir və insan tez-tez təkrarlanan, ağır gedişli xəstəliklərə düçar olur.

İmmunitetin zəifləməsi və yaxud immun çatışmazlığı müxtəlif səbəblərdən ola bilər. Bunlardan bəziləri anadangəlmə xarakter daşıyır, həyat boyu davam edir, ağır və generalizə olunmuş infeksiyalarla müşayiət olunur, hətta əllilik və ya ölümə də gətirib çıxara bilər. Anadangəlmə (birincili) immun çatışmazlığı genetik patologiyadır və xüsusi müayinə tələb edən uzunmüddətli müalicədir. Bundan fərqli olaraq əhali arasında daha geniş yayılan və bütün yaşlarda rast gəlinən ikincili immun zəifliyi də var ki, bu hal adətən müvəqqəti xarakter daşıyır və bir çox səbəblərlə bağlı olur - yorğunluq, zəif qidalanma, ağır fiziki və psixi gərginlik, hormonal və immunsupressor dərmanlardan istifadə və s."

Professor deyir ki, infeksion və ya şiş xəstəlikləri, immunsupressiya təsirli dərmanlar, şüalanma, güclü stress və s. hallar da immun sistemində tarazlığı poza bilər: "Normal immun mexanizmlərdə tarazlıq pozulduqda, onun müdafiə funksiyasının yerinə patoloji reaksiyalar baş verir və nəticədə autoimmun, allergik və limfoproliferativ xəstəliklər yarana bilər. İkincili immun zəifliyinin simptomları səciyyəvi xarakter daşımır. İndiyə kimi sağlam hesab olunan şəxslərdə dəridə və selikli qişalarda səpkilərin, bir neçə limfa düyününün 1-2 ay ərzində böyüməsi, dəridə uzun müddət sağalmayan yaralar, tənəffüs və mədə-bağırsaq xəstəliklərin təkrarlanması immun sistemin funksiyasını yoxlamağa zəmin yaradır.

Genetik patologiya ilə əlaqəli anadangəlmə immun çatışmazlığı yoxdursa, tez-tez xəstələnən uşaq və böyüklərə immuniteti gücləndirmək üçün bir sıra təbii vasitələr təyin oluna bilər. Bunlara adaptogen adı altında bitki və heyvan mənşəli preparatlar, təbii endogen interferonun sintezini və virus əleyhinə immuniteti gücləndirən vasitələr aiddir. Xroniki bakterial infeksiya ocaqları olan şəxslərə isə bir qrup bakterial lizatları birləşdirən müasir immunomodulyatorlar təyin oluna bilər".

G.Nəsrullayevanın sözlərinə görə, immunitet çox zərif və qeyri-stabil bir müdafiə mexanizmidir: "Bir çox hallarda immunitetin zəifləməsi müvəqqəti xarakter daşıyır və müəyyən bir səbəblə bağlı olur. Məsələn, respirator virus infeksiyası, mədə-bağırsaq bakterial infeksiya və s. Bu sistemin özünün bərpa qabiliyyəti var. Orqanizm qısa müddətdə öz immun funksiyasını normal vəziyyətə qaytara bilir. Bu zaman xəstəyə gücləndirilmiş qidalanma, daha çox fiziki və psixoloji istirahət, yuxunun normallaşdırılması və təmiz havada daha çox vaxt keçirməsi tövsiyə olunur, dərman vasitələri təyin edilmir. Adətən bu bərpa 2-4 həftə çəkir. İmmun sisteminə müdaxilə yalnız ciddi və davamlı pozğunluqlar aşkar olunduqda təyin edilir və bunun üçün əsaslı göstərişlər lazımdır. Belə hallara güclü qanaxmada, hemolitik xəstəliklərdə, şualanma zamanı, onkoloji xəstəliklərdə və digər hallarda rast gəlinir. Xəstələr ikincili virus, bakterial və opportunustik infeksiyalara tutulurlar, ağır fəsadlara məruz qalırlar və həyat üçün təhlükə yaranır. Bu zaman immunoterapiyanın aparılmasına zəmin yaranır. İmmun sistemində tarazlıq bərpa olunduqdan sonra müalicə dayandırılır. Yalnız xəstələrdə anadangəlmə immun çatışmazlığı aşkar edildikdə, onun tipinə və ağırlıq dərəcəsinə müvafiq əvəzedici terapiya təyin olunur (timik hormonlar, damar daxili immunoqlobulinlər və s.) Bu halda müalicə həyat boyu davam etməlidir".

Radiologiya - tibbin görən gözü

Professor Məlahət Sultanova: İonlaşma riski baxımından, yalnız uyğun göstərişlər olan hallarda radioloji müayinələr tətbiq edilməlidir

Müsahibimiz ATU-nun Şüa diaqnostikası və şüa terapiyası kafedrasının müdiri, professor Məlahət Sultanovadır.

- Məlahət xanım, son dövrlərdə şüa diaqnostikasına tələbat, sanki daha qabarıq görünür. Rəhbərlik etdiyiniz kafedranın fəaliyyətini bu tələbata adekvat hesab etmək olarmı?

- Xatırladım ki, 8 noyabr 1895-ci ildə dünyanı lərzəyə gətirən fenomenal kəşf müasir şüa diaqnostikası və terapiyasının əsasını qoydu. Kəşfin müəllifi o zaman öz müşahidələrini belə ifadə etmişdi: "Mən ilk növbədə görünməz işığın yeni bir növünü araşdırdım. Bu, açıq-aydın indiyəcən bilinməyən bir hadisə idi... Mən daxilimi görürdüm"...

Beləliklə, zəngin tarixə malik olan şüa diaqnostikası elmi onun banisi Vilhelm Konrad Rentgenin adını daşıyaraq, uzun illər daxili orqanların müayinəsinin yeganə üsulu idi. Bu gün isə bu sıraya USM, KT, MRT, nüvə təbabətinin hibrid üsulları əlavə edilib. Əbəs yerə bizim sahə tibbin görən gözü adlandırılmır. Bu müayinələrlə insan orqanizminin hər bir üzvü sanki şəffaf bir cismə çevrilib gözümüzün qarşısında canlanır. Xəstəlikləri ən erkən mərhələlərdə yüksək dəqiqliklə dəyərləndirməyə imkan verən bu müayinələr uzun bir inkişaf yolu keçib. Əgər biz tarixdə ilk dəfə çəkilmiş rentgen şəkli ilə müasir texnologiyalara əsaslanan təsviri müqayisə etsək, bu inkişafı əyani olaraq görərik.

Kafedramız universitetimizin Tədris Terapevtik və Tədris Cərrahiyyə klinikalarının bazalarında yerləşir. Bu klinikalarda maqnit rezonans tomoqrafiya, kompyuter tomoqrafiyası, rəqəmsal rentgen qurğuları, universal tipli angeoqraf, 4D rejimli ultrasəs müayinəsi və mammoqrafiya aparatları quraşdırılıb. Kafedra əməkdaşları tərəfindən bu klinikalarda diaqnostik radioloji müayinələr aparılır. Şüa terapiyasının tədrisində isə bizə ölkəmizin böyük elm və səhiyyə ocağı olan Milli Onkologiya Mərkəzi kömək edir. Tələbələrimiz dərslərin gedişində mütəmadi olaraq mərkəzdə müasir radioterapevtik üsullarla tanış olurlar.

Hazırda kafedramızda Radiologiya ixtisası üzrə 38 rezident təhsil alır. Onların yüksək səviyyəli mütəxəssis olması üçün əlimizdən gələni əsirgəmirik.

- Radioloji müayinələr hansı hallarda və necə aparılmalıdır? Radiasiya təhlükəsi haqqında insanlar nələri bilməlidir?

- İonlaşdırıcı şüaların kəşfindən dərhal sonra onların canlı toxumalarda dəyişiklik yaratmaq qabiliyyəti aşkar olundu. Canlı toxuma ilə ionlaşdırıcı enerjinin təmas müddəti saniyənin 10^6 qədər olduğu andan bioloji mühitdə dəyişikliklər baş vermiş olur. Enerjinin bioloji obyekt tərəfindən udulduğu an fiziki proses baş verir. Əmələ gələn yüklü hissəciklər kimyəvi reaksiyaya təkan verir. Biokimyəvi, biofiziki proseslər morfoloji və funksional dəyişikliklərə gətirib çıxarır. Sadalanan hadisələr bir neçə saniyədən bir neçə ilə qədər davam edə bilir. Əhalini ən çox maraqlandıran sual diaqnostik müayinələrdə şüalanmanın nə qədər olmasıdır. Pasiyentlər daim bunu soruşur, təkrar müayinələrdən nə vaxt keçə biləcəkləri ilə maraqlanırlar. Diaqnostik müayinələrdə daha çox tətbiq edilən ionlaşdırıcı şüa növü rentgen şüaları olaraq tanıdığımız X şüalardır. Bu şüalarla bütün rentgen müayinələri, kompyuter tomoqrafiya və çoxsaylı intenvension prosedurlar həyata keçirilir. Şüa orqanizmə nüfuz etdikdə, onun bir hissəsi toxumalar tərəfindən udulur. Məhz udulan doza şüalanma dozasını şərtləndirir. Bütün bədənin şüalanma dozası effektiv doza adlanır və millisievertlə (mSv) ölçülür. Effektiv doza dedikdə, bütünlükdə orqanizmin radiasiya riski nəzərdə tutulur. Müxtəlif müayinələrdə məruz qaldığımız effektiv dozanın miqdarını gündəlik məruz qaldığımız təbii şüalanma ilə müqayisəli şəkildə təsvir etsək, insan bir dəfə döş qəfəsinin rentgen müayinəsindən keçdikdə, effektiv doza təqribən 0,1mZv təşkil edir ki, bu da 10 günlük təbii şüalanma dozası qədər şüa yükünə ekvivalentdir. Torakal KT müayinəsi zamanı isə bu doza 6,1mZv təşkil etməklə 2 illik təbii şüalanma yükünə bərabərdir. Qeyd etmək istəyirəm ki, təbii şüalanma da öz növbəsində bir sıra amillərə bağlı olaraq dəyişkəndir və illik miqdarı təqribən 1,5-3,5 mZv (orta hesabla 2 mSv) arasında dəyişir.

- Kafedranızın əməkdaşları pandemiya sınağından necə çıxdı?

- Qürurla demək istəyirəm ki, pandemiyanın ilk günlərindən universitetimizin həm Tədris Terapevtik, həm də Tədris Cərrahiyyə klinikaları pandemiya xəstəxanaları kimi fəaliyyət göstərdi. Mənim 2020-ci il aprel ayının 1-də koronavirusla ilk tanışlığım başladı. Həyatımın ən faciəvi tanışlığı oldu desəm, yanılmaram... Bu virusun həkimlərdə, fiziki tərəfini demirəm, mənəvi olaraq yaratdığı sağalmaz yaraları heç nə ilə müqayisə etmək olmaz. Kafedramızın əməkdaşları da bu mübarizəyə qoşularaq, pasiyentlərin radioloji müayinələrinin aparılmasında yaxından iştirak etdilər.

Yeri gəlmişkən, pandemiya dönəmində insanların kabusuna çevrilmiş "buzlu şüşə" mənzərəsi (bəzən pasiyentlər onu buz kristalı, buz parçası, kristal şəkli kimi də adlandırırlar) haqqında haşiyə çıxım. Bu görüntü elə səslənməsi ilə insanlarda sanki bir tələş yaradır. Halbuki, "buzlu şüşə" bəzən normal hallarda da radioloji görüntülərdə izlənilə bilər. Məsələn, ən bəsit halda, müayinə zamanı xəstə dərindən nəfəs almazsa və ya müayinə nəfəsvermədə aparılarsa, ağciyərin havalılığının fizioloji ekspirator zəifləməsi səbəbindən bütün ağciyər sahələri homogen olmaqla "buzlu şüşə" görüntüsü verə bilər.

"Buzlu şüşə" görüntüsü koronavirus pnevmoniyasının əsas radiodiaqnostik əlaməti hesab edilir. Normalda şəffaf havalı görəcəyimiz ağciyərdə yarımşəffaf zonalar izlənilir, ağciyər sanki dumanlı görünür və "buzlu şüşə" effekti yaranır. Bu zaman bronx strukturlarının və pulmonar damarların saxlanması ilə ağciyərlərin eksudat və ya transudatla tutulması, interstisial qalınlaşmalar və ağciyər alveollarının hissəvi kollapsı ilə müşahidə olunan görüntü meydana çıxır, xəstəliyin 3-4-cü günlərindən inkişaf etməyə başlayır və xəstə sağaldıqdan hətta bir ay sonra belə qala bilir. Xəstəliyin yüngül və orta ağır dərəcəsini keçirmiş xəstələrdə 2-3 aydan sonra dəyişikliklər tamamilə itir.

Beləliklə, "buzlu şüşə" görüntüsü yalnız COVID xəstəliyi üçün səciyyəvi deyil, digər xəstəliklərdə də görülə bilər. Lakin uyğun kliniki-laborator əlamətlərlə pandemiya dönəmində bu görüntü izlənilərsə, diaqnostik proses COVID-19 xəstəliyinin lehinə dəyərləndiriləcək.

Qeyd etmək istəyirəm ki, bu görüntü döş qəfəsinin rentgenoqrafiya və KT müayinələrində aşkar edilir. Rentgenoqrafiya müayinəsinin "buzlu şüşə" görüntüsünün aşkar edilməsində həssaslığının aşağı olması səbəbindən, COVID pnevmoniyasının 1-4 günlərində rentgenoqram 25% hallarda tam normal ola bilər. Rentgenoqramın normal olması pnevmoniyanın yoxluğu anlamına gəlmir. KT müayinəsində görülməsi daha spesifikdir. Fürsətdən istifadə edib demək istəyirəm ki, COVID-19 xəstəliyinin diaqnostikasında bu müayinənin həssaslığı spesifik PCR testindən də həssasdır. Lakin yadda saxlamaq lazımdır ki, radioloji müayinələr ionlaşma riski baxımından yalnız uyğun göstərişlər olduğu hallarda tətbiq edilməlidir.

- Doktor, gələcəklə bağlı fəaliyyət prioritetləriniz nələrdir?

- Bu gün radiologiya yeni inkişaf dövrünü yaşayır. Ənənəvi rentgen müayinələrinin əsrlik təcrübəsinə söykənərək və müasir rəqəmsal texnologiyalara əsaslanaraq, şüa diaqnostikası tibbin bütün sahələrinə liderlik edir. Radioloqlar çox vaxt ekran arxasında özləri görünməsələr də, insanların daxilini görürlər. Hər bir radioloq ürəkdən arzulayır ki, xəstəyə həyatı boyu alacağı ən böyük hədiyyəni – normal radioloji təsvir və patologiyasız nəticəni təqdim etsin.

Öz ixtisasımız üzrə təcrübələrimizi bölüşmək, tələbələrimizə bu sahəni dərinlikləri ilə tədris etmək, beynəlxalq əlaqələrimizi gücləndirmək, gənc mütəxəssisləri bu işə daha yaxından cəlb edib həvəsləndirmək, eyni zamanda əhalimizə keyfiyyətli xidmət göstərmək kafedramızın əsas məqsədləridir.

A.KAMRANOĞLU

Atatürk Universiteti ilə birgə elmi tədqiqatlar aparılır

Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının dosenti, əczaçılıq üzrə fəlsəfə doktoru Sevil Mehralıyeva Türkiyədə tədqiqatlarda iştirak edir. S.Mehralıyeva Ərzurum şəhərindəki Atatürk Universitetində təbii mənşəli xammallar əsasında nanodərman formalarının alınması istiqamətində tədqiqatlar aparır.

ATU-nun təmsilçisi səfər zamanı Atatürk Universitetinin Tibb və Əczaçılıq fakültəsinin professor-müəllim heyəti ilə görüşüb. Görüşdə Altay Respublikasından Azərbaycana gətirilmiş, yerli iqlim şəraitinə uyğunlaşdırılmış maral pantalarının tərkibinin unikallığı, yeni tətbiq sahələrinin axtarışı istiqamətində geniş diskussiyalar aparılıb. Maral pantalarından Rusiya və Cənub-Şərqi Asiyada müxtəlif dərman və kosmetik vasitələrin istehsalında, sonsuzluq, ürəkdamar, dayaq-hərəkət sistemləri, sinir və həzm sistemi və s. xəstəliklərinin müalicəsində istehsal olunduğu da vurğulanıb.

Tədqiqat zamanı S.Mehralıyeva maral pantalarından laboratoriya şəraitində hazırladığı nanokapsullar, nanoemulsiya və nanogelin analizlərini Atatürk Universiteti Doğu Anadolu Yüksək Texnoloji Uygulama ve Araştırma Mərkəzinin (DAYTAM) aparıcı mütəxəssisləri ilə birlikdə uğurla yerinə yetirib.

Birgə işlər çərçivəsində maral pantalarından hazırlanan nanodərmanlardan osteoartrit, yaddaş zəifliyi, vaxtından əvvəl yaşlanmadan əziyyət çəkən pasiyentlərə kömək məqsədilə ATU və Atatürk Universitetinin birgə əməkdaşlığı ilə layihələrin həyata keçirilməsi təşəbbüsü də irəli sürülüb.

12 yaşlı ağır skoliozlu xəstə uğurla əməliyyat olunub



Bu günlərdə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında skolioz diaqnozu qoyulmuş 12 yaşlı uşaq cərrahi əməliyyata məruz qalıb. Əməliyyat klinikanın Neyrocərrahiyyə şöbəsinin assistenti Cəmil İskəndərovun rəhbərliyi ilə həyata keçirilib.

Neyrocərrahın bildirdiyinə görə, uşaqda skolioz xəstəliyi 10 yaşında aşkar olunub: "Xəstə son dövrlər korsetdən istifadə etməsinə baxmayaraq, onda sürətlə əyilmə prosesinin getməsi müşahidə edilirdi. Əyilmə 45 dərəcədən artıq idi. Prosesin qarşısını almaq mümkün olmadığı üçün onu əməliyyat etməyi qərara aldıq. Sevindirici haldır ki, əməliyyat uğurlu həyata keçdi. Artıq ertəsi gün xəstə gəzdirildi. Vəziyyəti qənaətbəxş olduğu üçün 4 gündən sonra evə yazıldı. O hazırda özünü normal hiss edir".

Həkim bunun ağır əməliyyat olmasına baxmayaraq, uşağın onurğasının tez bir zamanda bərpa olunacağına, normal həyata dönəcəyinə və təhsilini davam etdirəcəyinə əminliyini diqqətə çatdırıb.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

Fakültənin dekanı:

- İctimai səhiyyə fakültəsi

Kafedraların müdirləri:

- Məhkəmə təbabəti kafedrası
- Sitologiya, embriologiya və histologiya kafedrası
- I Daxili xəstəliklər kafedrası
- Patoloji fiziologiya kafedrası
- Ortopedik stomatologiya kafedrası
- Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası
- Ümumi cərrahlıq kafedrası
- Farmakoqnoziya kafedrası
- III Cərrahi xəstəliklər kafedrası
- Patoloji anatomiya kafedrası

Kafedraların professorları:

- Məhkəmə təbabəti kafedrası - 1 yer (0,5 vahid)
- Sitologiya, embriologiya və histologiya kafedrası - 1 yer (0,5 vahid)
- I Daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- Farmakoqnoziya kafedrası - 1 yer (0,5 vahid)
- III Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji anatomiya kafedrası - 1 yer (0,5 vahid)

Kafedraların dosentləri:

- I Daxili xəstəliklər kafedrası - 1 yer
- Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası - 2 yer (0,5 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 2 yer
- Klinik farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi cərrahlıq kafedrası - 1 yer
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Ağciyər xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Neyrocərrahlıq kafedrası - 1 yer (0,5 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

Kafedraların assistentləri:

- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Neyrocərrahlıq kafedrası - 2 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,75 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)

Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:

AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14
Telefon: 597-10-08

Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompyuter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifədə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan h\əkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.

Gələcəyin həkimləri idman yarışlarında da öndədir

Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yarışlarda tələbələrimiz yüksək nəticələr göstərib

Martın 5-6-da Azərbaycan Tibb Universitetinin Tədris İdman Kompleksində Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş yarışlar keçirilib. Nəsimi rayonunda yerləşən ali təhsil müəssisələrinin tələbələri idmanın futzal, badminton, stolüstü tennis və şahmat növləri üzrə yarışıblar. Yarışlardan öncə şəhidlərimizin xatirəsi anılıb və ATU-nun şəhid olmuş məzunlarının şərəfinə hazırlanmış stendin önünə güllər düzülüb.

Bundan sonra açılış mərasimi düzənlənib. Tədbirin aparıcısı, ATU-nun Stomatologiya fakültəsinin V kurs tələbəsi Əli Əliyev yarış iştirakçılarını salamlayaraq, Nəsimi rayonu üzrə ali məktəblərin komandalarında təmsil olunan 175 tələbə-idmançını meydana dəvət edib və Azərbaycanın Dövlət Himni səsləndirilib.

Açılış mərasimində yarışın iştirakçılarını və izləyiciləri salamlayan Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov baş idarənin adından bu mötəbər yarışa ev sahibliyi edən Azərbaycan Tibb Universitetinin rəhbərliyinə təşəkkürünü bildirib. İdarə rəisi Azərbaycanda Bədən Tərbiyəsi və İdman Gününün martın 5-də qeyd edilməsinin

təsadüfi olmadığını, 1995-ci il martın 5-də ümummilli lider Heydər Əliyevin tanınmış idmançılarla görüşü zamanı ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafında yeni strategiyanın təməlinin qoyulduğunu vurğulayıb. O, Prezident İlham Əliyevin 2005-ci il 4 mart tarixli sərəncamına əsasən, hər il Bədən Tərbiyəsi və İdman Gününün qeyd edildiyini xatırladaraq, bu münasibətlə keçirilən yarışın bütün iştirakçılarına uğurlar arzulayıb.

Nəsimi rayon Gənclər və İdman İdarəsinin rəisi Şahmar Tağıyev, ATU-nun Stomatologiya fakültəsinin dekanı Səid Əhmədov və ATU-nun "Təbib" idman klubunun sədri, əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov da açılış mərasimində çıxış edərək tələbə-idmançılara uğurlar diləyib, güclülərin qalib gələcəyinə inandıqlarını söyləyiblər. Bakı Musiqi Akademiyasının II kurs tələbəsi Elvin Əliyev isə idmançılara təbrikini ecazkar musiqinin dili ilə çatdırıb.

Nəsimi rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Tibb Universitetinin "Təbib" idman klubunun təşkilatçılığı ilə baş tutan yarışlarda Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Musiqi Akademiyası və Azərbaycan Universitetinin yığma komandaları öz güclərini sınayıblar.

Bu yarışlara ev sahibliyi edən ATU hər idman növündə iki komanda ilə təmsil olunub. İki gün davam edən yarışların əsas hədəfi Nəsimi rayonunda yerləşən ali təhsil müəssisələri, eləcə də Azərbaycan Tibb Universitetinin tələbələri arasında müxtəlif idman növlərinin populyarlaşmasına, təbliğinə və inkişafına, idmançı tələbələr arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinə töhfə vermək olub.

Tələbələri idman bölmələrində məşğələlərə cəlb etməklə bədən tərbiyəsi və idmanın kütləviliyini təmin etmək, onların idman ustalıqlarını, fiziki hazırlıqlarını və çevikliyini artırmaq, Vətənin müdafiəsinə hazırlıqlı gənclər yetişdirmək də yarışların başlıca hədəflərindən idi.

Bu cür yarışlar tələbələrin asudə vaxtlarını səmərəli keçirmələrini təmin etmək və onları zərərli vərdişlərdən yayındırmaq baxımından da əhəmiyyətlidir. Belə ki, bu yarışlar zamanı həvəskar idmançı tələbələr arasında idman yarışlarının qalibini, həmçinin ayrı-ayrı idman növləri üzrə beynəlxalq və respublika səviyyəli yarışlarda iştirak üçün tələbələrdən ibarət yığma komandaların tərkibini müəyyənləşdirmək imkanı yaranır.

İki günlük yarışlarda təşkilatçılar demək olar ki, öz hədəflərinə çatıblar. Futzal üzrə Azərbaycan Tibb Universiteti I, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti II, Azərbaycan Dövlət İqtisad Universiteti isə III yerə layiq görülüb.

Badminton üzrə Azərbaycan Tibb Universiteti I və II yerləri, Bakı Slavyan Universiteti III yeri tutub.

Stolüstü tennis yarışlarına ATU-nun 3-cü ehtiyat komandası da qatılıb və idmanın bu növü üzrə hər 3 yerin qalibi universitetimizin tələbələri olub.

Şahmat üzrə Azərbaycan Dövlət İqtisad Universitetinin komandası I, Azərbaycan Tibb Universitetinin komandaları isə II və III yerə çıxıb.

Ən yaxşı əzmkar idmançı kuboku futzal üzrə Azərbaycan Dövlət İqtisad Universitetindən Fərid Sadıxova, badminton üzrə Azərbaycan Dövlət Pedaqoji Universitetindən Nailə Balayevaya, stolüstü tennis üzrə Azərbaycan Tibb Universitetindən Ali Sotoudehə və şahmat üzrə Bakı Musiqi Akademiyasından Elvin Əliyevə verilib.

Qaliblər Nəsimi rayon Gənclər və İdman İdarəsinin diplom, medal və kubokları ilə təltif olunublar.

Qeyd edək ki, yarışlara ATU-nun müxtəlif kurs tələbələrindən könüllülər də cəlb olunmuş, təşkilati işlərə dəstək və tibb personalı qrupu yaradılmışdı. Sonda 18 nəfər könüllü tələbəyə təşəkkürnamələr təqdim edilib.

Tibbi biologiya və genetika kafedrasının müdiri, dosent Vaqif Kərimovun anadan olmasının 70, əmək fəaliyyətinin isə 52 ili tamam olur. 1952-ci il martın 14-də Zərdab rayonunun Məlikli kəndində zəhmətkeş ailəsində anadan olan Vaqif Kərimov orta məktəbi bitirdikdən sonra, 1970-ci ildə Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsinə daxil olub.

Dosent Vaqif Kərimovun 70 yaşı tamam olub

Axşam şöbəsində təhsil alan tələbə Vaqif Kərimov 1970-ci ildən taleyini Azərbaycan Tibb İnstitutu ilə bağlayıb. Biologiya kafedrasında preparator, laborant, baş laborant, assistent, baş müəllim və dosent vəzifələrində işləyib. Eyni zamanda kafedranın ictimai, mədəni-kütləvi işlərində fəallıq göstərib, uzun müddət tədris hissə müdiri vəzifəsində çalışıb.

Elmi-pedaqoji fəaliyyətə ötən əsrin 80-ci illərindən başlayan dosent Kərimov hazırlıq şöbəsində və ayrı-ayrı fakültələrin birinci kurslarında praktiki dərslər aparıb. 2004-cü ildən isə bütün fakültələrdə mühazirələr oxuyub. Həmin ildə biologiya elmləri namizədi elmi dərəcəsini alıb. Vaqif müəllim 45-dən artıq elmi məqalənin, tədris-metodiki vəsaitin, tədris proqramlarının və sanballı monoqrafiyanın müəllifi, Stomatologiya fakültəsinin tələbələri üçün nəzərdə tutulmuş böyük həcmli "Tibbi biologiya və genetika" dərsliyinin müəlliflərindən biridir. Hazırda kafedra əməkdaşları ilə birlikdə yeni proqram əsasında Tibbi biologiyadan 3 dildə (Azərbaycan, rus, ingilis) dərslik və dərs vəsaitlərini çapa hazırlayıb. O, 2018-ci ildə müsabiqə yolu ilə kafedra müdiri seçilib. Universitetimizi xaricdə keçirilən mötəbər elmi konfranslarda təmsil edib.

Vaqif müəllim həm də gözəl ailə başçısıdır. Ömür-gün yoldaşı əczaçı, iki qız övladından biri isə ATU-nun məzunudur. 52 il işlədiyi kollektivdə isə hamının ona xüsusi hörməti var.

Doğma kollektivi və yaxınları Vaqif müəllimi təbrik edir, ona möhkəm cansağlığı, tədris və pedaqoji fəaliyyətində müvəffəqiyyətlər arzulayırlar.

Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin VI kurs, 373C qrup tələbəsi İbadullayev Ümid Rəyasət oğlunun müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 162A qrup tələbəsi Musalı Nuran Musa qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, 219A4b qrup tələbəsi Zeynəb Sena Albayrakın tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, 419A4b qrup tələbəsi Salyanchi Tina Ebrahim qızının tələbə bileti itdiyi itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, 119A9b qrup tələbəsi Cəbrayılova Aidə Mərifət qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, 220İ4b qrup tələbəsi Alahamad Abdallah Obbid oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, 220A4b qrup tələbəsi Cavadlı Təhminə Mirağa qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İctimai səhiyyə fakültəsinin V kurs, 617A4 qrup tələbəsi Həsənli Nəzrin Əfqan qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Allah rəhmət eləsin!

Ümumi və toksikoloji kimya kafedrasının kollektivi
dosent Faiq Həsənovun
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları kafedranın laborantı Həmidə Əzizovaya bacısı
Ədilə xanımın
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın dosenti Misir Bayramova oğlu
Rəşadın
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

II Uşaq xəstəlikləri kafedrasının əməkdaşları
dosent Sabir Əmrirəliyevin
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 792
Sayı 2250